29 sentyabr 2014-cü il tarixində Yaponiya hökümətinin "Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı" çərçivəsində Yaponiyanın Azərbaycandakı Səfirinin Bakıdakı iqamətgahında millət vəkilləri xanım Məlahət İbrahimqızı və cənab Nizami Cəfərovun, həmçinin Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi Nümayəndəliyinin nümayəndəsi xanım Gülşən Mehdiyevanın iştirakı ilə aşağıdakı İmzalanma Mərasimləri keçirilmişdi.

## 1. "Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Ərəzin kəndində içməlu su təchizatı sisteminin tikintisi" layihəsi (103,080 USD)

## 2. "Ağstafanın Köçvəlili kəndində içməlu su təchizatı sisteminin tikintisi" layihəsi (103,092 USD)

Hər iki layihənin əsas məqsədi yeni su təchizatı sistemi inşa etməklə kənd sakinlərinin içməli suya olan ehtiyacını təmin etməkdir.

İmzalanma mərasimi



Sol tərəfdən: Mehriban İbrahimqızı (Millət vəkili), Səfir Tsuquo Takahaşi, Nizami Cəfərov (Millət vəkili)



Səfir və Ərəzin kənd bələdiyyəsinin sədri cənab Əbülfəz Ağayev arasında qrant imzalandı



Səfir və "Gənclərin Sosial Problemlərinin Həllinə Yardım" İçtimai Birliyinin sədri cənab Anar Aslanov arasında qrant imzalandı

